***Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində Pənahəli xan tərəfindən 1752-ci ildə təməli qoyulan Şuşa şəhərinin cari ildə 270 illik yubileyinin böyük təntənə ilə qeyd olunacağı və Şuşanın bərpasını sürətləndirmək məqsədi nəzərə alınaraq yeni ili "Şuşa ili" elan etdiyi diqqətə çatdırılıb. Dövlətimizin başçısının 5 yanvar 2022-ci il tarixdə imzaladığı sərəncamla da yüksək mədəni- mənəvi dəyərə malik olan Şuşanın Azərbaycan xalqı üçün mühüm tarixi əhəmiyyət daşıdığı bir daha təsdiqlənib.***

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bununla bağlı dedi:***

# Şuşanın iqtisadiyyatında turizm də xüsusi yer tutacaq



– 2022-ci ilin "Şuşa ili" elan olunmasının siyasi və mədəni cəhətdən xüsusi önəmi var. Belə ki, əvvəla dövlətimizin başçısının müvafiq sərəncamı bu şəhərin Azərbaycan torpağı olduğunu bir daha təsdiqləyir, digər tərəfdən isə erməni faşizminin dağıtdığı adı çəkilən mədəniyyət paytaxtımızın sürətlə bərpasını şərtləndirir, tikinti-quruculuq işlərinin geniş miqyasda aparılmasına əlverişli zəmin yaradır.

Qürur mənbəyimiz Şuşa uzun müddət Qarabağın əsas iqtisadi mərkəzlərindən hesab olunub. Həm şəhər, həm də eyni adlı rayon sənaye, kənd təsərrüfatı və xüsusən emaledici sektorların inkişafı üzrə fərqlənib. Ötən əsrin əvvəllərində Şuşada 1700-ə yaxın ticarət obyektinin qeydə alınması da buranın xüsusi iqtisadi potensiala malik olduğunu göstərib. 20,9 min hektar yararlı torpağı olan Şuşada kənd təsərrüfatında heyvandarlıq daha çox inkişaf edib.

1992-ci ildə, Şuşa işğal olunmamışdan öncə şəhərdə şərq musiqi alətləri fabriki, istehsalat kombinatı, Bakı "Radioqurma" İstehsalat Birliyinin müəssisəsi, Qarabağ ipək kombinatının toxuculuq sexi və digər istehsal müəssisələri var idi. Şuşada, eyni zamanda, inşaat materialları istehsalı üzrə də müəssisələr fəaliyyət göstərirdi.

Turizm Şuşanın iqtisadiyyatında xüsusi yer tuturdu. "Turşsu" yaylaqları, "Səkili bulağı", "İsa bulağı", "Şəmilin bulağı", "Cıdır düzü" turizm baxımından həmişə diqqət çəkirdi, 1992-ci ilədək Turşsu istirahət və müalicə zonası fəaliyyət göstərirdi.

Füzulidə Beynəlxalq Hava Limanının istifadəyə verilməsi də işğaldan azad edilən ərazilərin, o cümlədən, Şuşa şəhərini görmək istəyən xarici turistlərin sayının kifayət qədər çoxalmasına öz müsbət təsirini göstərəcək.

İşğalda olan illər ərzində Şuşanın iqtisadi potensialı tamamilə məhv edilib. Lakin Ali Baş Komandan İlham Əliyevin də qeyd etdiyi kimi, həyat və gülüş çox qısa zamanda Azərbaycanın bu qədim şəhərinə də qayıdacaq.

***Söhbəti qələmə aldı:***
***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 6 yanvar.- S.5.